# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 34 (1434), 3 - 9 sentyabr 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.




## Cüdoçularımız dünya çempionatını 2 medalla başa vurdular

Yaponiyanın paytaxtı Tokioda keçirilən cüdo üzrə dünya çempionatına yekun vurulub. Yarışda 149 ölkədən 866 (524 kişi, 342 qadın) cüdoçu qalib adı uğrunda mübarizə aparıb. Rekord sayda idmançının iştirak etdiyi yarışda Azərbaycan yığması 15 idmançı ilə təmsil olunub. 8 gün davam edən yarışda cüdoçularımız 1 gümüş və 1 bürünc medala sahib çıxıblar.

Mötəbər yarışın 3-cü günündə 73 kq çəkidə mübarizə aparan cüdoçularımızdan Rüstəm Orucov gümüş, Hidayət Heydərov isə bürünc medal qazanıb. Birinci mərhələdən azad olan Rüstəm Orucov ardıcıl olaraq Vadzim Şoka (Belarus), Georgios Markaryan (Yunanıstan) və Konstantin Qabuna (Kanada) qalib gələrək, 1/4 finala adlayıb. O, yarımfinal yolundakı rəqibi Tohar Butbula (İsrail ) da heç bir şans verməyib. Hidayət Heydərov da yarışa uğurlu start verib. O da R.Orucov kimi, ilk mərhələdən azad olub. Müvafiq olaraq, Friqyes Zabo (Macarıstan) və Musa Moquşkovu (Rusiya) üstələyən idmançımız 1/8 finala yüksəlib. O, bu mərhələdə Erik Hama (Böyük Britaniya) qalib gəlib. H.Heydərov 1/4 finalda Behruzi Xocazodanı (Tacikistan) da üstələyərək yarımfinala yüksəlib. Azarkeşlər yarimfinal mərhələsində idmançımızın mübarzəsini izləyiblər. Belə ki, Rüstəm Orucov və Hidayət Heydərov finala vəsiqə uğrunda üz-üzə gəliblər. Rəqibinə qalib gələn Rüstəm həlledici görüşə yüksəlib. Ancaq R.Orucov qızıl medal uğrunda keçirilən həlledici görüşdə yaponiyalı Şohei Onoya uduzaraq gümüş medala layiq görülüb. H.Heydərov isə bürünc medal qazanmağa müvəffəq olub. Cüdoçumuz 3-cü yer uğrunda görüşdə Somon Mahmadbekovu (Tacikistan) üstələyib.

## "Qarabağ" növbəti dəfə UEFA Avropa Liqasının qrup mərhələsində çıxış edəcək

Avqustun 29-da "Qarabağ" komandası UEFA Avropa Liqasının pley-off mərhələsi çərçivəsində Şimali İrlandiyanın "Linfild" komandası ilə cavab görüşü keçirib. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən qarşılaşma Ağdam təmsilçisinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, "Qarabağ" komandası iki oyunun nəticəsinə görə (2:3, 2:1) UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanıb. Bir gün sonra Monakoda futbol üzrə UEFA Avropa Liqasının 2019-2020-ci illər mövsümünün qrup mərhələsinin püşkatma mərasimi keçirilib. 48 klub hər birində dörd komanda olmaqla 12 qrupa bölünüb. Turnirdə Azərbaycanın yeganə təmsilçisi "Qarabağ"ın qrup mərhələsindəki rəqibləri müəyyənləşib. Azərbaycan çempionu A qrupunda "Sevilya" (İspaniya), APOEL (Kipr) və "Düdelanj" (Lüksemburq) komandaları ilə mübarizə aparacaq.

(ardı 7-ci səhifədə)



## İdman gimnastlarımız Türkiyədə iki medal qazanıblar

Türkiyənin Mersin şəhərində idman gimnastikası üzrə "Challenge" seriyasına aid dünya kuboku keçirilib.

Ölkəmizi bu yarışda milli komandamızın üzvləri Murad Ağarzayev və Cavidan Babayev uğurla təmsil ediblər. Belə ki, 6 alətin hər birində finala vəsiqə qazanan M.Ağarzayev ən yaxşı çıxışını dayaqlı tullanmada nümayiş etdirib. Gimnastımız 14,175 xalla turnirin qızıl medalını qazanmağa müvəffəq olub.

Digər təmsilçimiz C.Babayev də komanda yoldaşından geri qalmayaraq iki final mərhələsində gücünü sınayıb. İdmançımız halqalarda çıxışı ilə fərqlənərək 13,750 xalla bürünc medala layiq görülüb.



## Anons


*Avropa çempionatında medal qazanan şahmatçılarımız təltif ediliblər* Səh. 2

Azərbaycan Milli Paralimpiya Komitəsində görüş Səh. 2

*Zülfüqar Süleymanov:* **"Fəxr edirəm ki, belə bir ailədə dünyaya gəlmişəm"** Səh. 3


## Olimpizm

### Beynəlxalq Boks Assosiasiyası iflas ehtimalını nəzərdən keçirmir

Beynəlxalq Boks Assosiasiyası (AİBA) qurumun iflası variantını nəzərdən keçirmir. Bu barədə AİBA-nın müvəqqəti prezidenti Məhəmməd Mustasanın milli federasiyalara məktubunda danışılır.

Məktubda deyilir: "Biz AİBA-nın mümkün iflası barədə çoxlu təxminlər eşidirik və bununla əlaqədar bəyan etmək istərdim ki, bu, bizim nəzərdən keçirdiyimiz variant deyildir. Biz AIBA-nın restrukturizasiyası üzərində çalışırıq və bizim AIBA-nın sabit fəaliyyətinin təmin edilməsi üçün variantlarımız var. İcraiyyə Komitəsi AİBA-nın üzləşdiyi problemi həll etmək üçün vahid komanda şəklində işləməyə davam edir".

BOK 2020-ci ildə Tokio Olimpiadasında boks turnirinin keçirilməsi üzrə planlarını 2018-ci il noyabrın 30-da dondurub. Bu barədə qərar AİBA barəsində araşdırma başlayandan sonra qəbul edilib. BOK qeyd edib ki, təşkilatın maliyyə, idarəçilik və etika sahələri, o cümlədən Qafur Rəhimovun AİBA başçısı vəzifəsinə təyin edilməsi suallar doğurur, çünki funksioner ABŞ Maliyyə Nazirliyinin qadağaları altındadır və o, beynəlxalq cinayətkar şəbəkə ilə əlaqəsi olmaqda şübhəli bilinir. Daha sonra Q.Rəhimov AİBA prezidenti vəzifəsindən gedib, təşkilatın başçısı vəzifələrini mərakeşli Məhəmməd Mustasan icra etməyə başlayıb.

May ayında BOK boks turnirini 2020-ci ildə Tokioda keçiriləcək Olimpiadanın proqramından çıxarmamaq qərarına gəlib.

### İkiqat Olimpiya çempionu nikbindir

Şüvüllə tullanma üzrə ikiqat Olimpiya çempionu Yelena İsinbayeva hesab edir ki, Beynəlxalq Yüngül Atletika Federasiyası (İAAF) Rusiya Yüngül Atletika Federasiyasının (RYAF) fəaliyyətini bərpa etməlidir.

RYAF beynəlxalq idman qurumunun üzvlüyündən 2015-ci ildə dopinq qalmaqalı səbəbindən azad edilib.

"Federasiyanın fəaliyyəti bərpa olunmalıdır. Bu, çox çətin prosesdir və əvvəlcədən heç nə proqnoz vermək mümkün deyil. Biz İAAF-ın bu məsələ ilə bağlı yekun qərarını gözləyirik. Məsələnin müsbət həll olunacağına inanıram", - deyə Olimpiya çempionu bildirib.

Yelena İsinbayeva rusiyalı idmançıların Tokio-2020 Olimpiadasında öz bayraqları altında çıxış edəcəklərinə və yaxşı nəticələr əldə edəcəklərinə də əminliyini ifadə edib.

Məlumat üçün bildirək ki, Yelena İsinbayeva 2016-cı ilin yayından Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Atletlər Komissiyasının üzvü seçilib.

## Anons


*Azərbaycan Qran-Prisinin vaxtı müəyyənləşib* Səh. 4

Azərbaycan karateçilərindən uğurlu çıxış Səh. 4

*"Neftçi" çempionatda ilk qələbəsini qazandı* Səh. 6

Çempionlar Liqası: yeni autsayderlər köhnə favoritlərə qarşı Səh. 7

Şahmat



## Avropa çempionatında medal qazanan şahmatçılarımız təltif ediliblər

Slovakiyanın paytaxtı Bratislavada keçirilmiş şahmat üzrə yeniyetmələr arasında şəxsi Avropa birinciliyində uğurla çıxış edərək medallar qazanan Azərbaycan şahmatçıları, onların məşqçiləri və valideynləri ilə Gənclər və İdman Nazirliyində görüş keçirilib.

Görüşdə Gənclər və İdman naziri Azad Rəhimov, nazir müavini İsmayıl İsmayılov, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidentləri Faiq Həsənov, Mahir Məmmədov və digər şəxslər iştirak ediblər.

Nazir Azad Rəhimov gənc idmançıları qazandıqları nailiyyətlər münasibətilə təbrik edib, Azərbaycan şahmatının gələcək inkişafında onların hər birinin rolunu xüsusi vurğulayıb. Azərbaycan şahmatının ənənələri, ölkəmizdə təşkil olunan 42-ci Ümumdünya Şahmat Olimpiadası, Dünya Kuboku, super-turnirlər və beynəlxalq şahmat festivalları haqda məlumat verən nazir Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin ölkəmizdə idmanın digər növləri kimi, şahmatın da inkişafına yüksək diqqət və qayğı göstərdiyini bildirib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov qalibləri təbrik edərək, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına, Gənclər və İdman Nazirliyinə şahmatçılar adından təşəkkürünü bildirib.

Sonra Azad Rəhimov Avropa birinciliyində medallar qazanmış gənc şahmatçılara Gənclər və İdman Nazirliyinin fəxri fərmanlarını və pul mükafatları təqdim edib.

Avropa birinciliyində şahmatçılarımız 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. On dörd və səkkiz yaşadək qızların yarışında müvafiq olaraq, Ayan Allahverdiyeva və Dinara Hüseynova (hər ikisi Bakı) Avropa çempionu olublar. Gəncə təmsilçisi Səadət Bəşirli səkkiz yaşadək qızların mübarizəsində gümüş medala layiq görülüb. Oğlan təmsilçilərimizdən Yusif Kərimli (Şəki) səkkiz, Cahandar Azadəliyev (Bakı) isə on yaşadək şahmatçıların yarışında bürünc medallara sahib olublar. Bu nəticə ilə Azərbaycan yığması komanda hesabında Rusiyadan sonra ikinci pillədə qərarlaşıb.

## Azərbaycan Milli Paralimpiya Komitəsində görüş

Beynəlxalq Paralimpiya Komitəsinin para-pouerliftinq idmanı sektorunun yarışlar üzrə baş hakimi, İordaniyanın Ağır Atletika Federasiyasının prezidenti, Ərəbistan Para-Pouerliftinq Federasiyasının prezidenti Azzam Sari Ali Al-Zubi Bakıda səfərdədir. Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov avqustun 29-da qurumun ofisində Azzam Sari Ali Al-Zubi ilə görüşüb.



Görüş zamanı İ.Rəhimov Azərbaycanda para-pouerliftinq idman növünə böyük diqqətin olduğunu bildirib. Qeyd edib ki, idmanın bu növü Azərbaycan Ağır Atletika Federasiyasının hər zaman diqqət mərkəzindədir.

Qonaq, əvvəlcə, uğurla keçirilmiş seminarla bağlı məlumat verərək, yaradılmış şəraitə görə komitə prezidentinə təşəkkürünü bildirib. O, həmçinin hakimlik seminarının əhəmiyyətindən danışıb.

2022-ci ildə para-pouerliftinq idmanı üzrə Avropa çempionatı Bakıda keçiriləcəyindən bu kimi mötəbər beynəlxalq yarış öncəsi bir neçə belə seminarın təşkili ilə bağlı qarşılıqlı razılığa gəlinib. Avropa çempionatına hazırlıq çərçivəsində 2021-ci ildə Bakıda hakimliklə bağlı beynəlxalq seminarın keçirilməsi də təklif olunub. Sonda Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti Bakıda keçirilmiş seminara rəhbərlik etdiyinə görə Azzam Sari Ali Al-Zubiyə təşəkkürünü bildirib və gələcəkdə əməkdaşlıq etmək niyyətində olduğunu söyləyib.

## "Sərhədçi" İdman Olimpiya Mərkəzinin yaradılmasının 10-cu ildönümü qeyd olunub

Dövlət Sərhəd Xidmətinin (DSX) "Sərhədçi" İdman Olimpiya Mərkəzinin yaradılmasının 10-cu ildönümü münasibətilə bayram tədbiri keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Azad Ələkbərov DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin bayram təbrikini tədbir iştirakçılarına çatdırıb.

Azərbaycan Sərhəd Mühafizəsinin 100-cü ildönümü ərəfəsinə təsadüf edən tədbirdə ulu öndər Heydər Əliyevin milli inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ictimai həyatın bütün sahələrində olduğu kimi, idman sahəsində də böyük zirvələrin fəth edildiyi qeyd olunub.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2009-cu il avqustun 31-də açılışını etdiyi "Sərhədçi" İdman Olimpiya Mərkəzinin respublikamızda, o cümlədən Dövlət Sərhəd Xidmətində idmanın inkişafına yeni bir təkan verməsini, sərhədçi idmançılarının İdman Olimpiya Mərkəzinin fəaliyyət göstərdiyi müddət ərzində beynəlxalq və yerli yarışlarda 1254 qızıl, 835 gümüş, 977 bürünc medal qazanmalarını xüsusi vurğulayıblar.

Tədbirdə xidmət zamanı yüksək nəticələr əldə etmiş sərhədçi idmançılar mükafatlandırılıb. Bayram tədbiri Dövlət Sərhəd Xidmətinin Zabitlər Evinin Nümunəvi Hərbi Orkestrinin konsert proqramı və idmançıların nümunəvi çıxışları ilə başa çatıb.

Gimnastika

## Ölkə və paytaxt çempionatının qalibləri müəyyənləşib

Avqustun 31-də Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 26-cı Azərbaycan və Bakı çempionatına yekun vurulub. Üç gün davam edən turnirdə 100-dən çox gimnast birincilik uğrunda mübarizə aparıb.

Yarışın birinci günündə 2009-cu il təvəllüdlü gimnastların çoxnövçülük yarışlarında Gövhər İbrahimova qızıl medal qazanıb. Sofiya Məmmədova yarışı ikinci, Səkinəxanım İsmayılzadə isə üçüncü pillədə başa vurublar. 2010-cu il təvəllüdlü idmançıların mübarizəsində Təzəgül Yaqubova, Nəzrin Salmanlı və Nilufər



Oruclu ilk üç pillədə yer alıblar. Azadə Atakişiyeva 2011-ci il təvəllüdlü gimnastların mübarizəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Lalə Əzizzadə gümüş, Yelezaveta Yefremova isə bürünc medala sahib olub.

Fərdi gimnastlar -balacalar, yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyasında çoxnövçülük üzrə mübarizə yarışların ikinci günündə baş tutub. Balacalar kateqoriyasında Gövhər İbrahimova (2009-cu il), Təzəgül Yaqubova (2010-cu il), Azadə Atakişiyeva (2011-ci il) fərqləniblər. Yeniyetmələrin çoxnövçülük yarışlarında Kamilla Seyidzadə qızıl medal qazanıb. Fatimə Məmmədzadə yarışı ikinci, Mədinə Dəmirova üçüncü pillədə başa vurub. Gənclərin mübarizəsində Alina Gözəlova, Nigar Usubova və Leyli Ağazadə fərqləniblər. Zöhrə Ağamirova böyüklərin yarışında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Veronika Hudis gümüş, Yelizaveta Luzan bürünc medala sahib olublar.

## Doqquz yaşlı gimnastın 35-ci medalı

Doqquz yaşlı gimnast Mina Abbasova iyunda Bakıda keçirilən "Gymkids kuboku 2019" bədii gimnastika üzrə birinci açıq beynəlxalq çempionatda qızıl medal qazandıqdan sonra Budapeştdə XIX "Gracia" kuboku turnirində də ölkəmizi uğurla təmsil edərək çempion olub. Mina Abbasova bununla da aktivinə sayca 35-ci medalı (13 qızıl, 19 gümüş, 3 bürünc) yazdırıb.

Turnirdə Macarıstandan başqa, ABŞ, Kanada, Rusiya, Ukrayna, Lüksemburq, Xorvatiya, Slovakiya, Misir, Çexiya, Avstriya, İspaniya, İsrail, Rumıniya, İtaliya, Malayziya, Gürcüstan, Cənubi Koreya və Braziliya milli komandaları da qatılıb. Bu mötəbər yarışda həmyerlimiz alətsiz hərəkətlərdə rəqiblərini böyük xal fərqi ilə geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Növbəti pillələrdə isə müvafiq olaraq macar və rus gimnastlar qərarlaşıblar.

Mina Abbasova indiyədək iştirak etdiyi bütün beynəlxalq turnirlərdə parlaq qələbələri ilə diqqəti cəlb edib. O, beş yaşından başlayaraq Macarıstanda beynəlxalq dərəcəli hakim Lyubov Bernat və İnqa Makusun rəhbərlik etdikləri "Rus Rg Sport" klubunun üzvüdür. Həmyerlimiz iştirak etdiyi bütün yarışlarda valideynlərinin işi ilə bağlı yaşadıqları ölkəni - Macarıstanı təmsil etsə də, ötən ilin avqustundan etibarən Budapeştdə keçirilən XVII ənənəvi "Gracia" kuboku turnirindən sonra klub rəhbərliyinin icazəsi ilə Azərbaycan bayrağı altında çıxış edir.





Balaca gimnastımızın həmişəki kimi ən böyük arzusu ölkəmizi dünya çempionatlarında və Olimpiya Oyunlarında təmsil etmək və üçrəngli bayrağımızı zirvələrə qaldırmaqdır.

Boks

## Yığmamız qitə çempionatında tam heyətlə mübarizə aparacaq

Sentyabrın 4-də Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında Avropa çempionatı start götürəcək. Bir həftə davam edəcək yarışda Azərbaycan millisi də iştirak edəcək. Komandamız qitə birinciliyində tam heyətlə təmsil olunacaq. Yığmanın baş məşqçisi Əsgər Eyvazov yarışda Ruslan Qədirov (49 kq), Maqsud Xasmetov (52 kq), Əzrək Babirov (56 kq), Eldar Babayev (60 kq), Rəşid Həsənov (64 kq), Səlim Səlimov (69 kq), İror Platov (75 kq), Murad Allahverdiyev (81 kq), Əsəd Baxşıyev (91 kq) və Fuad Ağayevə (91 kq-dan yuxarı) şans verəcək.

Təlim-məşq toplanışını başa vuran boksçularımız artıq Sofiyaya yollanıblar.

Qeyd edək ki, Avropa birinciliyində püşkatma mərasimi bu gün keçiriləcək. Təsnifat mərhələsinin döyüşləri sentyabrın 4-8-də, yarımfinal görüşləri isə ayın 9-da keçiriləcək. Çempionatın qaliblərinin adlarına isə sentyabrın 10-da aydınlıq gələcək.

Voleybol

## İdmançılarımız Avropa çempionatında mübarizəni dayandırdılar

Sentyabrın 1-də qadın voleybolçulardan ibarət Azərbaycan millisi Macarıstan, Polşa, Slovakiya və Türkiyənin birgə ev sahibliyi etdiyi Avropa çempionatında növbəti oyununu keçirib.

Çempionatın səkkizdəbir final mərhələsində millimiz Bolqarıstan yığması ilə qarşılaşıb. Görüş rəqib komandanın 3:0 (25:12, 25:16, 25:23) hesablı qələbəsi ilə başa çatıb.

Dörddəbir finalda Bolqarıstan yığması Serbiya seçməsi ilə üz-üzə gələcək. Qarşılaşma sentyabrın 4-də təşkil olunacaq.

Turnirdə mübarizəni dayandıran millimiz çempionatın qrup mərhələsində Xorvatiya ilə Estoniyanı 3:2, Macarıstan və Rumıniyanı 3:0 hesabıyla məğlub edib, Hollandiya seçməsinə isə uduzub - 0:3. Azərbaycan millisi 10 xalla qrup ikincisi kimi səkkizdəbir finala yüksəlib. Azərbaycan millisinin heyətində Yana Əzimova, Kristina Yaqubova, Şəfaqət Alışanova, Ayşən Abduləzimova, Olena Həsənova, Kseniya Pavlenko, Mariya Kirilyuk, Anastasiya Qurbanova, Odina Əliyeva, Yelizaveta Səmədova, Anastasiya Bessonova, Polina Rəhimova, Marqarita Əzizova və Bəyaz Əliyeva yer alıblar.



Millimiz Avropa çempionatlarında 2005-ci ildə debüt edib. Xorvatiyada təşkil olunan qitə birinciliyində Azərbaycan millisi dördüncü olub. Səkkizinci dəfə Avropa birinciliyində gücünü sınayan yığmamız öncəki çempionatlarda mükafatçılar sırasına düşə bilməyib.

Qadınların yarışında final matçı Türkiyədə, kişilərin mübarizəsində isə həlledici qarşılaşma Fransada təşkil olunacaq.

Xatırladaq ki, ilk il əvvəl Azərbaycan və Gürcüstanın birgə ev sahibliyi ilə keçirilən 30-cu Avropa çempionatında qızıl medalları Serbiya voleybolçuları qazanıblar. Sonrakı yerlərdə Hollandiya, Türkiyə və Azərbaycan komandaları qərarlaşıb.

Çempionata sentyabrın 8-də yekun vurulacaq.

Müsahibə

***"Olimpiya dünyası" qəzeti olaraq oxucularımıza hər zaman müxtəlif idman növləri və atletlərimizin uğurları barədə məlumatlar veririk.***

***Azərbaycanda iz qoyan idmançı ailələr də az deyil.***

***Belə ki, Süleymanovlar ailəsi Azərbaycanda, bəlkə də, bütün dünyada ən böyük idmançı ailəsi sayıla bilər. Süleymanovlar ailəsində güləş və ağırlıqqaldırma üzrə müxtəlif beynəlxalq yarışların qalibləri var. Bu yaxınlarda həmin ailənin üzvü, Avropa çempionatlarının mükafatçısı, III İslam Həmrəyliyi Oyunlarının bürünc medalçısı Zülfüqar Süleymanov redaksiyamızın qonağı oldu. O, suallarımıza səmimi cavab verdi.***

# Zülfüqar Süleymanov: "Fəxr edirəm ki, belə bir ailədə dünyaya gəlmişəm"

***- Zülfüqar, əvvəlcə oxucularımıza nailiyyətlərin barədə məlumat verərdin.***

- İdmanla 1989-cu ildən məşğul olmağa başlamışam. Böyük qardaşımın tövsiyəsi ilə 10 ilə yaxın yunan-Roma güləşi ilə məşğul oldum. Amma o vaxtlar bu idman növündə maddi vəziyyət çox pis idi, hətta yarışlara da öz hesabımıza gedirdik. Bu səbəbdən 5-6 ay həm güləş, həm də ağırlıqqaldırma ilə məşğul oldum. Sonradan isə peşəkar fəaliyyətimi ağırlıqqaldırma idman növündə davam etdirməyi qərara aldım. 2007-ci ilin aprel ayında keçirilən böyüklər arasında Avropa çempionatında təkanla qaldırmada üçüncü yeri tutdum. 2008-ci ildə qitə çempionatında böyüklər arasında yarışda yenə eyni nəticəni təkrarladım. Həmin il İranda Olimpiya Oyunlarına lisenziya xarakterli beynəlxalq turnirdə həm birdənqaldırma, həm təkanlaqaldırma, həm də ümumi nəticədə üç qızıl medal qazandım. Buna baxmayaraq, məni Olimpiya Oyunlarına aparmadılar. Mənim əvəzimə aparılan idmançının isə heç bir nəticəsi olmadı. Olimpiya Oyunlarında o, heç sıralamaya da düşmədi. Sonradan baş məşqçi özü də məni yarışa aparmadığına görə peşman olduğunu etiraf etdi. Lakin bu heç nəyi dəyişmədi. Mənim ən böyük arzum Olimpiya Oyunlarında iştirak etmək idi. Karyeramın ən pik vaxtında buna mane oldular. 2009-cu ildə yenidən böyüklər arasında Avropa çempionatında iştirak etdim və həmin yarışda ikinci yeri tutdum. Dünya çempionatında isə dördüncü oldum. Həmin yarışda medal qazanmaq üçün böyük şansım olsa da, məşqçinin səhvinə görə mükafatlardan kənarda qaldım. Həmin vaxtı təlim-məşq toplanışı zamanı dünya rekordu müəyyənləşdirmişdim. Bu nəticə onu göstərirdi ki, mən dünya çempionatında medal qazanmalı idim. Lakin bolqarıstanlı mütəxəssisin səhv qərarına görə medalı əldən verdik. Onun tapşırığı ilə 125 kq çəkini qaldırdım. Halbuki məşqdə 145 kq qaldırırdım. Bu isə o deməkdir ki, dünya çempionatında ən azı 135 kq-dan başlamalı idim. Bu səhv qərar təkanla qaldırmada da özünü göstərdi. 2010-cu ildə keçirilən Avropa çempionatında bürünc medala layiq görüldüm. Bir il sonra isə dopinqə düşdüm. 2012-ci ilin sonunda məni əfv etdilər. Həmin il paytaxtımızın ev sahibliyi etdiyi Heydər Əliyevin xatirəsinə həsr olunmuş Prezident Kuboku yarışında üçüncü pillədə qərarlaşdım. 2013-cü ildə Albaniyanın Tirana şəhərində təşkil edilən Avropa çempionatında bürünc medal qazandım. Bu yarışda Azərbaycan iki idmançı ilə təmsil olunurdu. Komanda yoldaşım Valentin Xristov ən yaxşı nəticəni göstərərək çempion oldu. 2013-cü ildən İndoneziyada keçirilən III İslam Həmrəyliyi Oyunlarında üçüncü oldum. Biz 2013-cü ildən Avropa Oyunlarına hazırlaşmağa başladıq. Lakin elə bu vaxtlarda dedilər ki, bütün yığma komanda dopinqə düşüb. 2014-cü ildən yenidən beynəlxalq yarışlarda çıxış etməyə başladım. Həmin ilin sonlarından isə dopinq səbəbindən idmandan ömürlük uzaqlaşdırıldım. Halbuki beynəlxalq kodekslərdə də göstərilir ki, dopinqə görə heç bir idmançıya ömürlük cəza verilə bilməz. Bununla bağlı Beynəlxalq Ağır Atletika Federasiyasına və WADA-ya müraciətlər ünvanlamışam. İnanıram ki, bu müraciətlərə baxılacaq.



***- Qeyd etdin ki, 10 il yunan-Roma güləşi ilə məşğul olub, sonra ağır atletikaya keçmisən. Buna görə peşman deyilsən ki?***

- Sonrakı peşmanlıq fayda verməz. Mənə elə gəlir ki, əgər bir az səbr etsə idim, güləşdə böyük nailiyyətlər qazana bilərdim. Çünki güləşdə ağırlıqqaldırmada olduğu kimi haqsızlıqlar, dopinq problemi olmur.

***- Hazırda məşqçi kimi fəaliyyət göstərməyinə icazə verilir?***

- Məşqçi-müəllim kimi əslində çalışmaq olur. Azərbaycanda da dopinqə düşən elə idmançılar var ki, yığma komandada məşqçi kimi çalışırlar. Həmin idmançılara federasiyada şərait yaradılır. Yəni Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə dopinqə düşən idmançılar məşqçi kimi fəaliyyət göstərirlər.

## "İdmanı bir növ qazanc mənbəyinə çeviriblər"

***- Ağırlıqqaldırma idman növündə dopinqdən daha çox istifadə olunduğu üçün bu idman növünü Olimpiadanın proqramından çıxarmaq istəyirlər.***

- Əslində nəinki ancaq ağırlıqqaldırma, bütün idman növləri ilə məşğul olan idmançılar bəzən dopinqdən istifadə edirlər. Sadəcə, bəziləri bunu gizlədərək, özlərini təmizə çıxarırlar. Hər bir idman növündə dopinqə düşən idmançı olub. Dopinq idmanın bəlasıdır. Bir sözlə, idmanı bir növ qazanc mənbəyinə çeviriblər.

## "Mən dopinqlə mübarizəni dəstəkləyirəm. Bir şərtlə ki..."

***- Zülfüqar, dopinq qəbul etmədən idmanda böyük uğurlar qazanmaq mümkündür?***

- O halda mümkündür ki, bütün dünya qadağan edilmiş preparatlardan imtina etsin və hamı sırf öz gücünün hesabına mübarizə aparsın. Əgər rəqiblərimiz gücləndirici maddələrdən istifadə edirsə, digər idmançıların bu dərmanları qəbul etmədən onlarla yarışaraq nəticə qazanması real görünmür. Dopinq insan sağlamlığına böyük ziyan vurur. Mən dopinqlə mübarizəni dəstəkləyirəm. Bir şərtlə ki, şərait eyni olsun və hamı bundan imtina etsin.

## "İdmançının da gücü müəyyən bir yerə qədərdir"

***- Sizdən əvvəlki idmançılar da bərpaedici dərmanlardan istifadə ediblər...***

- Doğrudur. Ancaq o vaxtkı dərmanların tərkibi ilə indikilər arasında ciddi fərq var. Yəqin ki, əvvəllər vitaminlər daha keyfiyyətli idi. Bizdən əvvəlki idmançıların asanlıqla ram etdiyi çəkilərə indiki idmançılar yaxın düşə bilmirlər. Kateqoriyaların tez-tez dəyişilməsinə səbəb də elə budur. Çünki dünya və Avropa rekordlarını təzələyən idmançılar yoxdur. İdmançının da gücü müəyyən bir yerə qədərdir. Bunun dayanacaq bir nöqtəsi olur. İnsan bədəninin qaldıra biləcək bir kütləsi var. O da pik səviyyəyə çatandan sonra kateqoriya mütləq dəyişilir ki, yenidən rekordlar müəyyənləşdirmək mümkün olsun.

***- Bəs bərpaedici maddələri təbii yolla qəbul etmək olurmu?***

- Əslində olar. Belə ki, müasir dövrümüzdə müxtəlif ərzaq məhsullarına da qadağan olunmuş maddələr əlavə edirlər ki, daha uzun müddət istifadəyə yararlı olsun. Nəticədə həmin məhsuldan istifadə edən idmançı özü belə fərqində olmadan dopinqə düşə bilər. Bir neçə dəfə belə hallar olub. Əgər təbii yolla bərpaedici vasitələrdən istifadə etmək istəyiriksə, onda gərək hər şeyin təbiiliyinə əmin olaq.

***- İdmanla məşğul olduğun vaxtlarda yemək rasionuna necə əməl edirdin?***

- Mənim çəkim həmişə artmağa meyilli olub. Ona görə də çalışmışam ki, un məmulatlarından, o cümlədən çörəkdən, şirniyyatdan istifadə etməyim. Orqanizm üçün lazım olan vitaminləri daha çox ətdən və düyüdən almağa üstünlük vermişəm. Evdə də həmişə bunu nəzərə alıblar.

## "Mən dünyaya gələndə medalım özümlə gəlib"

***- Süleymanovlar qardaşlarının idmandakı nailiyyətlərini ayrı-ayrılıqda necə xarakterizə edərsən?***

- Bizim ailəmiz 13 uşaqdan ibarətdir. 9 qardaş, 4 bacı. Fəxr edirəm ki, belə bir ailədə dünyaya gəlmişəm. Mən ailənin 10-cu uşağıyam. Anam "qəhrəman ana"-dır. O qəhrəman ana kimi qızıl medalı mənə görə alıb. SSRİ dövründə 10-cu uşağa görə anaya qızıl medal təqdim olunurdu. Belə deyək ki, mən dünyaya gələndə medalım, necə deyərlər, özümlə gəlib. İdmana yönlənməyimizin ən böyük səbəbkarı böyük qardaşım Hafiz olub. O, uğurlar qazandıqca bizi də ardınca apardı. Hafiz iki dəfə dünya, beş dəfə Avropa çempionudur. O, dəfələrlə dünya mükafatçısı və rekordçusudur. Əməkdar məşqçi adına layiq görülüb. Bir müddət qadınlardan ibarət yığma komandamızın baş məşqçisi kimi çalışıb. Onun tələbələri arasında titullu idmançılar var. Hazırda Türkiyənin Adana şəhərində çalışır. Rəhmətlik qardaşım Mübariz, əvvəlcə, yunan-Roma güləşi ilə, sonra isə ağırlıqqaldırma ilə məşğul olub. Azərbaycan çempionu olub. İdman ustası idi. Aydın Süleymanov yunan-Roma güləşi ilə məşğul olub. Əməkdar məşqçi və idman ustasıdır. O, Qarabağ müharibəsinə görə 21 yaşında idmanı atıb və könüllü olaraq müharibəyə yollanıb. Döyüşlərdə aldığı zədələr və qəlpə yaraları onun idmançı karyerasına son qoydu. O, bundan sonra fəaliyyətini məşqçi kimi davam etdirdi. Hazırda Abşeron İdman Olimpiya Kompleksində çalışır. Məşqçi kimi özünü doğruldub. Onun yetirmələri arasında Avropa və dünya çempionları var. Elxan Süleymanov isə ağırlıqqaldırma ilə məşğul olub. Avropa kubokunun qalibidir. Dəfələrlə qitə çempionatının mükafatçısı olub. Beynəlxalq dərəcəli, A kateqoriyalı hakimdir. Azərbaycanda Hakimlər kollegiyasının 5 üzvündən biridir. Məndən böyük qardaşım Elbrus yunan-Roma güləşi ilə məşğul olsa da, idmandan tez uzaqlaşıb. Çoxuşaqlı ailə olduğumuz üçün maddi təminat lazım idi. Buna görə də o, ticarətlə məşğul olaraq çalışırdı ki, ailəyə maddi baxımdan kömək olsun. O, idman ustalığına namizəddir. Mən isə söhbətimizin əvvəlində qeyd etdiyim kimi 4 dəfə Avropa mükafatçısı olmuşam - 3 dəfə bürünc, bir dəfə gümüş medal qazanmışam. Həmçinin III İslam Həmrəyliyi Oyunlarının bürünc mükafatçısıyam. Məndən balaca qardaşım Sərdar yunan-Roma güləşi üzrə idman ustasıdır. Azərbaycan çempionu, dəfələrlə beynəlxalq turnirlərin qalib və mükafatçısı olub. Ən balaca qardaşım Qadir isə yunan-Roma güləşi üzrə dünya birinciliyində gümüş medal qazanıb. Türkiyədə keçirilən tələbələrin universiada yarışlarında fəxri kürsünün üçüncü pilləsində yer alıb.



***- Dünyaya gəlişinlə anana orden verilib. Bəs idmançı kimi bunu etmək üzrəyindən keçibmi?***

- Əlbəttə. Lakin unutmaq olmaz ki, idmanda şans amili də var. Bundan sonra, bəlkə də, veteranlar arasında yarışlarda bu arzuma çataram və qazandığım qızıl medalı anamın boynundan asaram. Bununla da anama olan övladlıq borcumun bir faizini də olsa qaytarmaq istəyərəm.

***- Bütün ailə bir yerə yığışanda, yəqin ki, əsas mövzu idman olur.***

- Bəli, əvvəllər belə idi. Müxtəlif yığıncaqlarda idman uğurlarımız, karyeramız haqqında danışırdıq. Hamımız ailə həyatı qurduqdan sonra isə ailəmiz daha da genişləndi. Hətta indi hamımız bir araya gələndə bir evə yerləşmirik. İndi əsas müzakirə mövzumuz daha çox övladlarımızın gələcəyi ilə bağlıdır.

## "İdmandan kənarda qalmaq mənə pis təsir edir"

***- Yeri gəlmişkən, övladlarınla bağlı planların nədən ibarətdir?***

- İdmanda gördüyüm haqsızlıqlara görə onların idmançı olmasını o qədər də istəmirəm. Uşaqlarımın gələcəyi üçün onların təhsilin, elmin arxasınca getməsini istəyirəm. Ömrümün 25 ilini idmana vermişəm. Hazırda idmandan kənarda qalmaq insana pis təsir edir. Uşaqlarım da yaxşı oxuyaraq həm də idmanla məşğul olsalar, buna etirazım olmaz.

***- İdmandan başqa hansı sahəyə marağın var?***

- Uşaqlıqdan ingilis dilinə böyük həvəsim var. Çox istəyərdim ki, bu dili təmiz bilim, ya müəllim, ya da tərcüməçi kimi çalışım. Bundan başqa jurnalistika ilə məşğul olmaq, ana dilimizi düzgün təbliğ etmək də mənim üçün çox xoş olardı. Bəzən efirlər də görürəm ki, jurnalistlər adi danışıq qaydalarına əməl etmirlər. Yaxud da altyazıda hansısa hərf səhvinə rast gəlirəm. Bunlar insanı qıcıqlandırır. Çünki dil hər bir ölkəni beynəlxalq səviyyədə tanıdan əsas amillərdən biridir. Dilimizi nə qədər gözəl, dəqiq bilsək, ölkəmiz haqqında da bir o qədər çox, ətraflı məlumatlar verə bilərik.

***- Hazırda harada fəaliyyət göstərirsən?***

- Hazırda idman sahəsi ilə heç bir əlaqəm yoxdu. Sadəcə bəzən yarışlara hakim qismində dəvət olunuram. 2013-cü ildən Heydər Əliyev adına Beynəlxalq Hava Limanında təhlükəsizlik xidmətinin əməkdaşı kimi çalışıram. 2016-cı ilə kimi həm də məşqçi-müəllim kimi fəaliyyət göstərirdim. Sonradan isə bunun üçün o qədər də şərait yaradılmadı.

***- Bəs gələcəkdə yenidən məşqçi kimi çalışmaq istəyərsən?***

- Əlbəttə, istəyərəm. Həm ixtisasım budur, həm də peşəkar idmançıyam. Çox istəyirəm ki, öz bilik və bacarıqlarımı gənc nəsillə bölüşüm. Sadəcə indiki işimlə paralel alınmadığına görə 2016-cı ildə məşqçilikdən uzaqlaşdım. Qeyd edim ki, yetirmələrim arasında Azərbaycan çempionları, mükafatçıları, hətta yığma komandada olan idmançılar var. Ağırlıqqaldırma elə bir idman növüdür ki, müəllimsiz bu idman növü il məşğul olmaq çətindir. Əgər mənə idman zalı qurmaq üçün yer ayrılsa bir ağırlıqqaldırma klubu yaradıb yenidən məşqçi-müəllim kimi çalışmaq istəyərəm.

*Anar Əhmədov,*
*Azər Əlizadə*

# Azərbaycan Qran-Prisinin vaxtı müəyyənləşib

*Formula 1 çempionatı təqviminin yeni layihəsinə görə, ilk dəfə 22 mərhələdən ibarət olacaq F1 yarışlarında Azərbaycan Qran-Prisi 2020-ci il iyunun 7-də keçirilə bilər. Layihə Beynəlxalq Avtomobil İdmanı Federasiyasının Ümumdünya Şurası tərəfindən oktyabrın 4-də təsdiq ediləcək.*




F 1 tarixində ilk dəfə çempionat 22 mərhələdən ibarət olacaq. Onlardan onu Avropada, yeddisi Asiyada, dördü isə Amerikada keçiriləcək. Yürüşlərə martın 15-nə nəzərdə tutulmuş Avstraliya Qran-Prisi ilə start veriləcək. Ənənəyə uyğun olaraq, final mərhələsinin noyabrın 29-da Əbu-Dabidəki Yas-Marina avtodromunda keçirilməsi planlaşdırılır.

2020-ci ildə ilk dəfə Hanoy şəhərindəki trasda aprelin 5-də Vyetnam Qran-Prisi keçiriləcək. Bundan başqa, Niderland Qran-Prisi də Formula 1-ə qayıdır: Zandfortda yürüş mayın 3-nə planlaşdırılıb.

Cari ildə Avstraliya, Azərbaycan, Böyük Britaniya, İspaniyanın promouterləri ilə müqavilələr də yenilənib. Hazırda bu il 90 illiyini qeyd edəcək İtaliya yürüşünün təşkilatçıları ilə danışıqlar davam edir.

**2020-ci il təqviminin layihəsi:**

15 mart - Avstraliya (Melburn)
22 mart - Bəhreyn (Sahir)
5 aprel - Vyetnam (Hanoy)
19 aprel - Çin (Şanxay)
3 may - Niderland (Zandfort)
10 may - İspaniya (Barselona)
24 may - Monako (Monako)
7 iyun - Azərbaycan (Bakı)
14 iyun - Kanada (Monreal)
28 iyun - Fransa (Le-Kastelle)
5 iyul - Avstriya (Şpilberq)
19 iyul - Böyük Britaniya (Silverstoun)
2 avqust - Macarıstan (Budapeşt)
30 avqust - Belçika (Spa)
6 sentyabr - İtaliya (Montsa)
20 sentyabr - Sinqapur (Sinqapur)
27 sentyabr - Rusiya (Soçi)
11 oktyabr - Yaponiya (Suzuka)
25 oktyabr - ABŞ (Ostin)
1 noyabr - Meksika (Mexiko)
15 noyabr - Braziliya (San-Paulu)
29 noyabr - Əbu-Dabi (Yas-Marina).

## "Olimpiya ümidləri" "Sərhədçi"də yarışacaq

Sentyabrın 27-29-da Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş karate üzrə ənənəvi beynəlxalq turnir keçiriləcək.

Bu dəfə "Olimpiya ümidləri" adlandırılan yarış 6-13 yaşlı uşaqlar arasında təşkil olunacaq.

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyasının və Azərbaycan Milli Karate Federasiyasının birgə təşkil edəcəyi beynəlxalq xatirə turniri "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçiriləcək.

Sentyabrın 28-də saat 17:00-da turnirin təntənəli açılış mərasimi olacaq. Xatirə turnirinə beynəlxalq hakimlər də dəvət olunacaq. Yarışda 10-dan çox ölkənin idmançılarının iştirakı gözlənilir.

"Olimpiya ümidləri" turnirindən bir gün əvvəl tanınmış Azərbaycan karateçilərinin rəhbərliyi ilə seminarın təşkili nəzərdə tutulub.

## Beynəlxalq yarışlarda uğur qazanmış əməkdaşlarla görüş

Avqustun 28-də Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman Sağlamlıq Mərkəzində Dövlət Yanğından Mühafizə Xidmətinin (DYMX) beynəlxalq yarışlarda uğur qazanmış əməkdaşları ilə görüş keçirilib.

İdman Sağlamlıq Mərkəzinin rəisi, polkovnik Füzuli Musayev idmançıları - DYMX-nin Nizami rayon "N" saylı bölməsinin yanğınsöndürəni kiçik çavuş Əşrəf Bayramovu və Binəqədi rayon hissəsinin yanğınsöndürəni çavuş Toğrul Mikayılovu qazandıqları nailiyyətlər münasibətilə təbrik edib, onlara gələcək yarışlarda müvəffəqiyyətlər arzulayıb.

Əşrəf Bayramov 2017-ci il oktyabrın 26-da İtaliyanın Karrara şəhərində keçirilmiş MMA döyüş növləri üzrə dünya çempionatında gümüş medal qazanıb. Bundan əlavə, idmançımız bu il iyulun 20-də Batumidə keçirilmiş MMA üzrə peşəkar döyüşdə 56 kiloqram çəki dərəcəsində çıxış edib. O, erməni idmançıya qalib gələrək çempion olub. DYMX Binəqədi rayon hissəsinin yanğınsöndürəni, Aprel döyüşlərinin iştirakçısı olmuş çavuş Toğrul Mikayılov avqustun 23-25-də Rumıniyada keçirilən kunq-fu sanda üzrə dünya çempionatında 60 kiloqram çəki dərəcəsində mübarizə apararaq qızıl medalın sahibi olub.

## Assosiasiyanın təsis konfransı keçirilib

Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzinin bazasında yeni yaradılan Braziliya Ciu-citsusu və Xidməti Tətbiqi İdman Növləri Assosiasiyasının təsis konfransı keçirilib.

Konfransda Azərbaycan-Braziliya Ciu-citsu Məktəbinin rəhbərləri, o cümlədən Türkiyənin İzmir şəhərindən, Sumqayıt, Əlat, Suraxanı, Qusar, Gəncə və digər rayonlardan nümayəndələr iştirak ediblər.

Tədbirdə Assosiasiyanın prezidenti vəzifəsinə seçki keçirilib.

Konfransa sədrlik edən Avrasiya Kombat Ciu-Citsu Federasiyasının prezidenti Rəsul Məmmədov Azərbaycan Taekvondo Federasiyasının və Azərbaycan Karate Federasiyaları Assosiasiyasının birinci vitse-prezidenti, Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzinin rəisi Füzuli Musayevin namizədliyini irəli sürüb. F.Musayev yekdilliklə Assosiasiyanın prezidenti vəzifəsinə seçilib.

Braziliya Ciu-citsu klubu İctimai Birliyinin rəhbəri Taleh Həsənov Assosiasiyanın birinci vitse-prezidenti, uzun müddət Daxili İşlər Nazirliyinin əlbəyaxa döyüş mərkəzinin rəhbəri, xidməti tətbiqi idman növlərinin inkişafında səy və xidmətləri olmuş İdman Sağlamlıq Mərkəzinin hüquqşünası Həmid Məmmədov baş katibi, Avrasiya Kombat Ciu-Citsu Federasiyasının prezidenti Rəsul Məmmədov texniki direktor, ölkəmizdə cüdonun inkişafına töhfələr vermiş Zaur Rəcəbli isə Assosiasiyasının məşqçilər komitəsinin sədri vəzifələrinə təyin ediliblər.

## Azərbaycan karateçilərindən uğurlu çıxış

Türkiyənin Rizə şəhərində Qaradəniz və Xəzəryanı ölkələrin təmsilçiləri arasında növbəti karate çempionatına yekun vurulub. Ənənəvi yarışda 162 idmançı ilə iştirak edən Azərbaycan karateçiləri 16 qızıl, 14 gümüş və 17 bürünc medalla ümumi hesabda yerli idmançılardan sonra ikinci pilləni tutublar.

Rizə Qapalı İdman Salonunda uşaqlar, yeniyetmələr, gənclər, böyüklər və veteranlar arasında turnirdə 9 ölkədən 57 regionu təmsil edən 158 klubun tərkibində 1506 idmançı mübarizə aparıb. Azərbaycan Milli Karate Federasiyasının, həmçinin Qaradəniz və Xəzəryanı ölkələrin Karate Federasiyaları Təşkilatının prezidenti Yaşar Bəşirov fərqlənən idmançıların mükafatlandırma mərasimində iştirak edib.





## Bakı Karate-do akademiyasında yoldaşlıq görüşləri təşkil edilib

Sentyabrın 1-də Yeni tədris ilinin başlanması ilə əlaqədar Bakı Karate-do Akademiyasının təşkilatçılığı ilə komandalar arasında yoldaşlıq görüşləri keçirilib. Dostluq turnirini giriş sözü ilə açan Bakı karate-do akademiyasının prezidenti Vüsal Abdullazadə yarışın əhəmiyyətindən danışıb və idmançılara uğurlar arzulayıb. Ardınca görüşlərə start verilib. 2001-2013-cü illər təvəllüdlü idmançıların iştirak etdiyi yarışda beş komandadan 100-ə yaxın uşaq və yeniyetmə mübarizə aparıb. Bakı Karate-do Akademiyasının təmsilçiləri komanda hesabında ən yaxşı nəticəni göstəriblər. "Gömrükçü" kollektivi ikinci olub. "Qara qaplan" klubunun yetirmələri isə üçüncü yerlə kifayətləniblər.

## Məşqçi və idmançılar üçün beynəlxalq seminar




Ukraynanın Kamenets-Podolsk şəhərində Ukrayna Ağır Atletika Federasiyasının (AAAF) və Avropa Ağır Atletika Federasiyasının (EWF) birgə təşkilatçılığı ilə "Məşq düşərgəsi və elmi seminarı" təşkil olunub.

EWF-nin ənənəvi tədbirində 20 ölkədən gənc idmançı və məşqçilər iştirak ediblər. Onların arasında dörd nəfər Azərbaycan təmsilçisi də olub. İdmançılardan Nurlan Məmmədzadə və Rahilə Hüseynova, məşqçilərdən isə Təranə Abbasova və Emil Əliyev seminar və məşqlərdə iştirak ediblər.

Gənc atletlər hər gün EWF-in təcrübəli mütəxəssisləri - EWF Məşqçilik Tədqiqat və Elmi Komitəsinin sədri Kolin Bakli və həmin komitənin üzvü Eduard Andryuşkeviç tərəfindən keçirilən səhər və axşam məşqlərində iştirak edib, ağır atletikada yeni çalışma metodları ilə tanış olublar. Bununla yanaşı, müxtəlif ölkə idmançılarının bir-biri ilə ünsiyyət qurmaq, dostluq əlaqələri yaratmaq, təcrübə mübadiləsi aparmaq, birlikdə səmərəli və əyləncəli vaxt keçirmək imkanları olub.

Məşqçilər isə bu məşqlərlə yanaşı, elmi seminarda da iştirak ediblər. Onlara müasir məşqçilik istiqamətləri, yeniliklər, antidopinq fəaliyyəti, hazırlıqların səmərəli təşkili, yeni sistemlər və digər məlumatlar verilib, praktiki və nəzəri məşğələlər keçilib.

## *Penitensiar Xidmətin əməkdaşı dünya çempionu olub*

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Mühafizə Alayının xüsusi təyinatlı bölüyünün atıcısı, ədliyyə çavuşu İsrafil Şabanov dünya çempionu olub. O, bu uğura Rumıniyanın Konstanta şəhərində keçirilmiş kunq-fu sanda üzrə dünya çempionatında bütün rəqiblərinə qalib gələrək nail olub.

Qeyd edək ki, İ.Şabanov bu ilin mayında Azərbaycan çempionu adını qazanıb. O, əvvəllər də beynəlxalq idman yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## "Zirvə-Astara" basketbol komandası Xorvatiyada üçüncülüyü qazanıb



"Zirvə-Astara" komandası Beynəlxalq Basketbol Federasiyasının (FİBA) təşkilatçılığı ilə keçirilən 3x3 basketbol üzrə 2019-cu il dünya turundakı çıxışını başa vurub.

Basketbolçularımız Xorvatiya, Polşa, Latviya, Belarus və İsveçrə mərhələlərində qüvvələrini sınayaraq uğur qazanmağa çalışıblar.

"Zirvə-Astara"nın heyətində Amil Həmzəyev, Anar Hacıyev, Şərif Uilyams və Marşal Obrian Mozes kimi tanınmış basketbolçular oynayıblar.

Komandamız "Atupri 3x3 Swiss Tour Final Zurich", "Ghetto Basket. Riga #13. Quest Stop", "Palova Round 3" və "Mistrzostw Radomia 2019" turnirlərindən sonra son olaraq Xorvatiyanın Oqulin şəhərində keçirilən "StreetballOG" yarışında qüvvəsini sınayıb.

Sonuncu yarışda "Zirvə-Astara" C qrupunda yer alıb. Burada basketbolçularımız 2 oyun keçiriblər. "Nyu Strit Boyz" və "Rey Çarlz"a qalib gələn komandamız 1/4 finala yüksəlib. İdmançılarımız bu mərhələdə "Drvoysyeçe" komandasına 21:10 hesabı ilə qalib gələrək yarımfinala çıxıblar. "Spalato A2" ilə üz-üzə gələn "Zirvə Astara" 11:21 hesabı ilə məğlub olub. Lakin üçüncü yer uğrunda qarşılaşma uğurlu alınıb. Basketbolçularımız bürünc medal uğrunda mübarizədə "Tesla"ya 21:19 hesabı ilə qalib gələrək fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

# “Məsuliyyət uğurumuzun təməlidir”

***Hər bir ölkədə sağlam, vətənpərvər yeniyetmə və gənclərin yetişməsi birbaşa olaraq idmanın və Olimpiya Hərəkatının inkişafı ilə sıx bağlıdır. Müşahidələr göstərir ki, ölkədə idmanla məşğul olanların sayı nə qədər çoxdursa, həmin ölkə beynəlxalq arenada bütün sahələrdə öz sözünü deməyi bacarır. Sevindirici haldır ki, Azərbaycanda idmanın və bədən tərbiyəsinin inkişafı diqqət mərkəzindədir. Bu məqsədlə nəinki paytaxtda, eləcə də, bölgələrdə yüksək standartlara cavab verən idman ocaqları, o cümlədən Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Respublikanın hər bölgəsində bu cür komplekslərin olması yaxınlıqda yaşayan uşaq, yeniyetmə və gənclər üçün olduqca əlverişlidir. Belə idman qurğularından biri də Xəzər rayonunda yerləşən Şağan Olimpiya İdman Kompleksidir. 2009-cu ildən fəaliyyət göstərən kompleks “Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı”na əsasən inşa olunub. On ildir istifadəyə verilən idman qurğusunda dəfələrlə yerli və beynəlxalq əhəmiyyətli tədbirlər, idman yarışları keçirilib. Bir müddət əvvəl kompleksin fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün idman ocağının direktoru Atakişi Cahanovla görüşdük.***

Üç ildir bu idman qurğusunda məsul vəzifədə çalışan Atakişi müəllim, əvvəlcə, kompleks haqqında ətraflı məlumat verdi. “Kompleksin ümumi sahəsi 3,25 hektardır. Əsas korpus ikimərtəbəlidir. Korpusun birinci mərtəbəsində idmançılarımızın müxtəlif beynəlxalq yarışlarda uğurlarını əks etdirən fotostend quraşdırılıb. Burada universal idman, güləş və trenajor zalları, hakimlər otağı, soyunub-geyinmə və digər xidmət otaqları yerləşir. Futbol, həndbol, voleybol, basketbol növləri ilə məşğul olmaq və yarışlar keçirmək üçün nəzərdə tutulan bu zaldakı tribunada 620 oturacaq var. Güləş, boks və digər döyüş növləri üçün nəzərdə tutulmuş zal isə 615 tamaşaçı tutumuna malikdir. Kompleksdəki zallarda həm mini futbol, basketbol, voleybol, həm də gimnastika, boks, güləş üzrə beynəlxalq səviyyəli yarışlar keçirmək mümkündür. Binanın ikinci mərtəbəsində yeməkxana, konfrans zalı, həkim otağı və digər xidmət bölmələri fəaliyyət göstərir. Qapalı üzgüçülük hovuzunun yerləşdiyi korpusdakı hovuzun uzunluğu 25, eni isə 12,5 metrdir. Korpusun ikinci mərtəbəsində məşqçi və şərhçi otaqları, şahmat otağı, həmçinin yarışları izləmək üçün lojalar var. Kompleksin ərazisində inşa olunmuş ikimərtəbəli mehmanxana 25 nəfər üçün nəzərdə tutulub. Burada 12 standard və bir lüks otaq var. Açıq havadakı idman qurğuları isə iki tennis kortu, mini futbol və voleybol meydançalarından ibarətdir. Kompleksin ərazisində 1032 tamaşaçı yeri olan süni örtüklü stadion da var”, - deyə Atakişi Cahanov bildirib.

Söhbət zamanı məlum oldu ki, müsahibimiz həm də keçmiş idmançıdır. O, uzun illər cüdo ilə, bir müddət isə boksla məşğul olub. Odur ki, müntəzəm olaraq kompleksdə məşğul olan idmançılarla şəxsən görüşür, onlara öz tövsiyə və məsləhətlərini verir. Atakişi müəllimin sözlərinə görə, idmanın yaşı olmasa da, hər idman növünün daha məqsədəuyğun hesab edildiyi bir dövr var. “Mən adətən məsləhət görürəm ki, uşaqlar idmandakı ilk addımlarını üzgüçülük növündə atsınlar. Çünki üzgüçülükdə zədə ehtimalı, demək olar, yox dərəcəsindədir. Üzgüçülük, həm də əl və ayaq əzələlərinin, həmçinin qan-damar, sinir sisteminin inkişafında əvəzsiz rol oynayır. Düşünürəm ki, bir müddət üzgüçülüklə məşğul olub sonradan digər idman növləri ilə tanış olmaq daha yaxşıdır. Onu da deyim ki, bəzən idmançılar nəticə əldə etmək üçün tələsirlər. Bu, düzgün deyil. Nəticə həvəsi ilə yaşamaq, məşq etmək lazımdır. Amma tələsmək olmaz. Gərək səbrli olasan, əzmkarlıq göstərib uğur əldə edənə kimi çalışasan. Əgər belə olarsa qələbə öz-özünə gələcək. Necə deyərlər, zəhmətin sonu zəfərdir”, - deyə idman ocağının direktoru bildirib.

## Təmiz havada idmanla məşğul olmaq vacibdir

Uzun illik təcrübəsinə əsaslanaraq idmançılara həmişə düzgün yol göstərməyə çalışdığını deyən Atakişi müəllim bildirdi ki, yeniyetmə və gənclərə daha çox açıq havada olmağı məsləhət görür. Çünki təmiz havada adi yürüş belə orqanizm üçün çox faydalıdır. “Yeniyetmə və gənclər çalışmalıdırlar ki, açıq havada daha çox olsunlar, nəinki qapalı zallarda. Əlbəttə, açıq hava deyəndə fabrik, zavod, avtomobil tüstüsündən uzaq, təmiz ekologiyanı nəzərdə tuturam. Bu məqsədlə kompleksin ərazisində yaşıllaşdırma, abadlıq işlərinə xüsusi diqqətlə yanaşıram. Yaxşı olar ki, hansı idman növünə üstünlük verməkdən asılı olmayaraq, bütün idmançılarımız hər gün bir neçə dövrə kompleksin ərazisində qaçsınlar. Qaçış zamanı ürəyin döyüntüsünün sürəti artır, insan daha çox nəfəs almalı olur və bu zaman gərək ziyanlı qazları yox, oksigen qəbul edəsən. Şübhəsiz ki, ağacların çox olması da birbaşa olaraq oksigeni bolluğuna şərait yaradır. Qaçışdan söz düşmüşkən, vurğulayım ki, bu idman növü ilə müntəzəm







məşğul olmaq hər kəs üçün lazımlıdır. Ümumiyyətlə, qaçış, üzgüçülük, trenajor, ağırlıqqalırma kimi idman növləri səciyyəvi xüsusiyyətlərə malikdir. Məsələn üzgüçülük, qaçış düzgün nəfəsalmanı tənzimləyir, ağırlıqqaldırma dözümlüyü artırır, trenajor isə fiziki gücü inkişaf etdirir. Bu mənada peşəkar cüdoçu da, boksçu da, futbolçu da çalışmalıdır ki, həm də həftədə bir neçə dəfə adını çəkdiyim idman növləri ilə məşğul olsun”, - deyə müsahibimiz əlavə edib.

## “İdmanla məşğul olmaq mütləqdir”

Atakişi Cahanov həm də Qarabağ veteranıdır. Müsahibimizin fikrincə, idmanla məşğul olmaq sağlamlıq üçün nə qədər vacibdirsə, hərbi-vətənpərvərlik ruhunun aşılanması üçün də bir o qədər əhəmiyyətlidir. Atakişi müəllim belə düşünür ki, idmançılar hərbi xidmətdə fərqlənməyi bacarırlar. “İdmanla məşğul olmaq xüsusilə indiki dövrdə çox vacibdir. İnsan idmanla məşğul olanda, beynəlxalq yarışlarda bayraq, himn üçün mübarizə aparmağa başlayanda vətənpərvərliyin nə demək olduğunu başa düşür. Təsəvvür edin, idmançı məhz himnini səsləndirmək üçün gərgin mübarizə aparır, hətta əzilməkdən, zədə almaqdan qorxmur. Nəticədə əsl vətəndaş kimi böyüyür. Vurğulamalıyam ki, idman necə vətənpərvərlik hissinin aşılanmasına kömək olursa, vətənpərvərlik də qələbəyə gedən yolda idmançıya yardım edir. Təsadüfi deyil ki, bir çox hallarda sona kimi mübarizə aparanlar legionerlər yox, məhz yerli təmsilçilər olurlar. Nəzərə almaq lazımdır ki, müharibə şəraitində yaşayırıq. Vətənimizin müdafiəsi, firəvan gələcəyi naminə bizə həm ürəyi, həm də biləyi güclü, vətənpərvər gənclər lazımdır. Bunun üçün isə idmanla məşğul olmaq mütləqdir”, - deyə təcrübəli mütəxəssis bildirib.

## “Ən əsas məsələ məhz sağlamlıqdır”

Kompleksin direktoru bildirdi ki, o, gigiyena məsələlərinə də xüsusi diqqətlə yanaşır. Gündəlik olaraq müxtəlif bölmələrin məşqlərinə nəzarət etməklə yanaşı, həm də soyunub-geyinmə otaqlarının təmizliyinə, habelə döşəklərin, hovuz suyunun təmizliyinə fikir verir. Təcrübəli mütəxəssisin sözlərinə görə, əks halda nəinki arzuolunan nəticəni əldə etmək olmaz, həm də xoşagəlməz hallarda üzləşmək mümkündür. “Demək olar, hər gün idman döşəklərini, hovuzu nəzarətdən keçirirəm. Bu, mənim işimin bir hissəsidir. Həm döşəklərin, həm də hovuz suyunun təmizliyini qorumaq üçün müəyyən müddətdən bir müvafiq dərmanlardan istifadə etmək lazımdır. Biz bu məsələyə xüsusi həssaslıqla yanaşırıq. Çünki təmizlik imandan gəlir. Əgər belə olmasa idmançılar xəstəlik tapa bilərlər. Unutmaq olmaz ki, onlar bura sağlamlıqlarını təhlükəyə atmaqdan ötrü yox, əksinə, sağlamlıqlarının qeydinə qalmaq üçün gəlirlər. Ən əsas məsələ məhz sağlamlıqdır. Sağlamlığı qorumaq üçün isə, əvvəlcə, təmizliyə, gigiyenik normalara əməl etmək lazımdır. Bu istiqamətdə həm biz, həm də idmançılar bir-birimizə kömək etməliyik. Yəni əgər biz rəhbərlik olaraq məsuliyyət daşıyıb vaxtı-vaxtında lazımi tədbirləri görürüksə, gərək idmançılar özləri də məsuliyyəti dərk etsinlər. Axı məsuliyyət uğurumuzun təməlidir. Başa düşsünlər ki, hovuza girməzdən əvvəl yaxşı duş qəbul etmək lazımdır, habelə başqalarının avadanlıqlarından istifadə etmək, ayaqqabı ilə zala girmək olmaz. Müvafiq normalara əməl edəndə nəticə də keyfiyyətli olur”.

## “Bu il də Şağan Olimpiya İdman kompleksinin idmançıları üçün uğurla davam edir”

Şağan Olimpiya İdman Kompleksinin idmançılarının əldə etdiyi nailiyyətlərdən danışmazdan əvvəl fəaliyyət göstərən idman növləri haqqında məlumat verən həmsöhbətim dedi ki, hazırda burada 18 idman növü üzrə 400-ə yaxın uşaq, yeniyetmə və gənc məşğul olur. Cüdo, güləş, şahmat və futbol idman növlərində kütləvilik daha çoxdur. Həmin bölmələrin hər birində təxminən 50-60 idmançı məşğul olur. Uşaq, yeniyetmə və gənclərə konkret idman növünün sirlərini kifayət qədər bilik və bacarığa sahib məşqçi-müəllimlər öyrədirlər. Əldə olunan uğurlar isə sübut edir ki, məşqlər lazımi keyfiyyətdə keçirilir. “Sevindirici haldır ki, 18 idman növünün hər birində kifayət qədər nailiyyətimiz var. 2018-ci ilin yanvar ayında sərbəst güləş üzrə yeniyetmələr arasında Bakı birinciliyində idmançılarımızdan ikisi- Rəşad Əlizadə və Əfqan Səfərov bürünc medala layiq görülüblər. Yunan-Roma güləşçilərimizdən Mehdi Hacıyev Bakı ikincisi olub, Murad Aslanov isə fəxri kürsünün üçüncü pilləsində yer alıb. Ötən ilin fevral ayında güləş üzrə yeniyetmələr arasında respublika çempionatında Rəşad Əzizov bütün rəqiblərinə qalib gələrək çempion olub. Kikboksinq üzrə Azərbaycan çempionatında ikisi qızıl olmaqla altı medal qazandıq. İdmançılarımızdan Ruzi Mirzəliyev və Xanoğlan Əlizadə yarışın qalibi adını qazanıblar. Sabir Qayıbov, Elvin Vəlizadə, Xacay Şibilyev və Gülbəniz Məhərrəmova yalnız finalda məğlub olaraq ikinci yerlə kifayətləniblər. Zakir Mirzəyev isə bürünc medalla təltif edilib. Sevindirici haldır ki, idmançılarımız təkcə respublikadaxili yox, həm də beynəlxalq yarışlarda fərqlənməyi bacarırlar. Belə ki, noyabr ayında İran İslam Respublikasında təşkil edilən güləş üzrə yeniyetmələr arasında beynəlxalq turnirdən təmsilçimiz Rəşad Əzizov vətənə qızıl medalla qayıdıb. 74 kq çəki dərəcəsində döşəyə çıxan Əmir Hüseyn kişilər arasında Bakı çempionatının gümüş medalına sahib çıxıb. Kyokişin karate üzrə daha bir beynəlxalq yarışda Şağan Olimpiya İdman Kompleksinin yetirməsi Nihat Hüseynov üçüncü olub. 2018-ci ilin sonlarında “Abad məhəllə” layihəsi çərçivəsində keçirilən şahmat yarışında Zəhra Ələkbərova birinci yeri tutub. Dekabrın 24-25-də sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin İdman Sağlamlıq Mərkəzinin “Gömrükçü” idman klubunun ənənəvi açıq birinciliyində yenə parlaq qələbələr əldə etmişik. Həmin yarışda Ruslan Abdullayev və İsa Vurtuyev müvafiq olaraq birinci və ikinci yerlərə sahib çıxıblar. Rasim Əliyevlə Orxan Hüseynli isə üçüncülüklə kifayətləniblər. Bu il də Şağan Olimpiya İdman kompleksinin idmançıları üçün uğurla davam edir. Yanvar ayının 9-11-də keçirilən cüdo üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyində məşqçi Dilavər Şirvanlının yetirməsi İsmayıl Qənbərli qızıl medalla bizi sevindirib. Həmçinin yanvar ayında şahmatçılarımız “Qış-2019” təsnifat turnirində Zamin Babayev 5.5 xal toplayaraq dördüncü, Lalə Məmmədova isə 6 xalla ikinci dərəcə normasını yerinə yetirib. “Sərhədçi” Olimpiya İdman Kompleksində keçirilən sərbəst güləş üzrə yeniyetmələr arasında respublika birinciliyində 65 kq çəki dərəcəsində mübarizə aparan Rəşad Əzizov ikinci, müvafiq olaraq 45 kq və 80 kq çəki dərəcələrində xalça üzərinə çıxan Kamran Əliyev və İsmayıl Cabbarlı isə üçüncü yerə sahib çıxıblar. May ayında “VII Zirvə beynəlxalq uşaq oyunları”nda ağırlıqqaldırma yarışlarında iştirak edən Hacı Əliyev yarışı fəxri kürsünün üçüncü pilləsində başa vurub. Bədii gimnastika yarışlarında isə Yeganə İbrahimli ikinci yerə layiq görülüb. Bədii gimnastika üzrə qrup hərəkətlərində Yeganə İbrahimli, Ayan Qafarzadə, Fidan Qurbanlı, Mədinə Hənifəyeva və Ləman Muradovadan ibarət komanda üçüncü olub. “Elit” tədris mərkəzində təşkil edilən və “1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi” Gününə həsr olunmuş şahmat üzrə 4, 3 və 2-ci dərəcələr üzrə təsnifat turnirindən xüsusilə danışmaq istəyirəm. Həmin yarışda Elmir Rüstəmli 7.5 xalla 3-cü dərəcə normativini yerinə yetirib və birinci yeri tutub. Davud Zairli 2-ci dərəcə uğrunda yarışda birinci olub. Danil Osadçiy 4-cü dərəcə, Tofiq Rüstəmli 3-cü dərəcə normativini yerinə yetirərək ikinci olub. Mehriban Pənahova və Zəhra Ələkbərova isə müvafiq olaraq 3-cü və 2-ci dərəcə uğrunda mübarizədə üçüncü yeri tutublar. Göründüyü kimi, nəticələrimiz bir idman növündə yox, bütün idman növlərində var. Bu isə hərtərəfli inkişafdan xəbər verir”, - deyə müsahibimiz bildirib.

## “İdmançının hansı gücə malik olduğu məhz mübarizə meydanında məlum olur”

Şağan Olimpiya İdman kompleksi təkcə yetirmələrinin əldə etdiyi uğurlarla fərqlənmir. Burada həm də il ərzində bir neçə dəfə yerli və beynəlxalq əhəmiyyətli idman yarışları keçirilir. Atakişi müəllimin sözlərinə görə, Şağan Olimpiya İdman Kompleksinin bu cür tədbirlərə ev sahibliyi etməsi böyük zəhmət tələb etsə də, idmanın kütləviləşməsi istiqamətində müstəsna əhəmiyyətə malikdir. “İl ərzində Şağan Olimpiya İdman Kompleksində müxtəlif yarışlar təşkil olunur. Müşahidəmə əsasən deyə bilərəm ki, həmin vaxtlarda yaxın ərazidə yaşayan uşaq və yeniyetmələr kompleksimizə gəlir, yarışları maraqla izləyirlər. Sonradan bir çox hallarda onlarda idmana həvəs yaranır. Qeyd etməliyəm ki, Şağan Olimpiya İdman Kompleksi buraya həvalə edilən bütün yarışlara və tədbirlərə uğurla ev sahibliyi edir. Çünki biz işimizə məsuliyyətlə yanaşırıq”, - deyə Atakişi müəllim bildirib.

Göründüyü kimi, Şağan Olimpiya İdman Kompleksində idmana böyük maraq var. Əldə edilən uğurlar onu sübut edir ki, kompleksin idmançıları yaradılmış şəraitdən səmərəli şəkildə istifadə etməyi bacarırlar. Bu isə daha böyük qələbələrə yol açır. Qələbəyə gedən yol isə səbr və zəhmətdən keçir. Atakişi müəllimin özünün də dediyi kimi, zəhmətin sonu zəfərdir...

***Kənan Novruzov***

# F U T B O L



## “Qarabağ” növbəti dəfə UEFA Avropa Liqasının qrup mərhələsində çıxış edəcək

*(əvvəli 1-ci səhifədə)*

Artıq klub təmsilçimizin qrup mərhələsindəki oyunlarının təqvimi də müəyyənləşib. Azərbaycan çempionu ilk turda İspaniyanın “Sevilya” komandasını qəbul edəcək. Ölkə çempionu qrupdakı ikinci matçında Lüksemburqda “Düdelanj”ın qonağı olacaq.

Qurban Qurbanovun yetirmələri üçüncü turda doğma azarkeşlər önündə Kiprin APOEL komandası ilə qarşılaşacaq.

Dördüncü turda “Qarabağ” yenidən APOEL ilə, bu dəfə Kiprdə üz-üzə gələcək. Beşinci turda Qurban Qurbanovun komandası İspaniyada “Sevilya”nın qonağı olacaq.

Sonuncu - 6-cı turda isə “Qarabağ” öz meydanında “Düdelanj” komandası ilə qarşılaşacaq. Oyunlar sentyabrın 19-da, oktyabrın 3-də, 24-də, noyabrın 7-də, 28-də və dekabrın 12-də keçiriləcək.

Xatırladaq ki, “Qarabağ” UEFA Çempionlar Liqasının birinci təsnifat mərhələsində Albaniya çempionu “Partizani”ni mübarizədən kənarlaşdırıb - 0:0, 2:0. Ağdam təmsilçisi ikinci təsnifat mərhələsində İrlandiyanın “Dundalk” komandasından üstün olub - 1:1, 3:0. Qurban Qurbanovun komandası növbəti mərhələdə səfərdə APOEL-ə (Kipr) 2:1 hesabı ilə qalib gəlsə də, Bakıdakı cavab matçında uduzaraq (0:2) qitənin ən nüfuzlu klub turniri ilə vidalaşıb və mübarizəni UEFA Avropa Liqasında davam etdirməli olub.

* * *

Qitənin ikinci böyük klub turnirində digər qruplarda da rəqiblər müəyyənləşib. Kiyev “Dinamo”su, “Bazel”, “Sportinq” “Latsio”, “Arsenal”, “Portu”, SSKA, “Volsburq”, “Roma”, “Beşiktaş” və “Mançester Yunayted” müvafiq olaraq, qrupda favorit kimi göstəriliblər.

**A qrupu**
“Sevilya” (İspaniya)
APOEL (Kipr)
“Qarabağ” (Azərbaycan)
“Dudelanj” (Lüksemburq)

**B qrupu**
“Dynamo Kiyev” (Ukrayna)
“Kopenhagen” (Danimarka)
“Malmö” (İsveç)
“Luqano” (İsveç)

**C qrupu**
“Bazel” (İsveçrə)
“Krasnodar” (Rusiya)
“Xetafe” (İspaniya)
“Trabzonspor” (Türkiyə)

**D qrupu**
“Sportinq” (Portuqaliya)
PSV (Hollandiya)
“Rosenborq” (Norveç)
LASK (Avstriya)

**E qrupu**
“Latsio” (İtaliya)
“Seltik” (Şotlandiya)
“Renn” (Fransa)
ÇFR Klyuj (Rumıniya)

**F qrupu**
“Arsenal” (İngiltərə)
“Ayntraxt” (Almaniya)
“Standard Lyers” (Belçika)
“Gimaraynş” (Portuqaliya)

**G qrupu**
“Porto” (Portuqaliya)
“Yanq Boys” (İsveçrə)
“Feyenoord” (Hollandiya)
“Reyncers” (Şotlandiya)

**H qrupu**
SSKA (Rusiya)
“Ludoqorets” (Bolqarıstan)
“Espanyol” (İspaniya)
“Ferençfaroş” (Macarıstan)

**I qrupu**
“Volfsburq” (Almaniya)
“Gent” (Belçika)
“Sent-Etyen” (Fransa)
“Aleksandriya” (Ukrayna)

**J qrupu**
“Roma” (İtaliya)
“Borussiya” (Almaniya)
“İstanbul Başakşəhər” (TUR)
“Volfsberger” (AUT)

**K qrupu**
“Beşiktaş” (Türkiyə)
“Braqa” (Portuqaliya)
“Vulverhempton” (İngiltərə)
“Slovan” (Slovakiya)

**L qrupu**
“Mançester Yunayted” (İngiltərə)
“Astana” (Qazaxıstan)
“Partizan” (Serbiya)
AZ Alkmaar (Hollandiya)

## “Neftçi” çempionatda ilk qələbəsini qazandı

Avqustun 31-də futbol üzrə Azərbaycan Premyer Liqasının üçüncü turuna start verilib. Turun açılış görüşü Qəbələ şəhər stadionunda təşkil olunub. “Keşlə” klubu səfərdə “Qəbələ”nin qonağı olub. Görüş paytaxt təmsilçisinin 4:0 hesablı qələbəsi ilə başa çatıb. “Keşlə” klubunun heyətində Slavik Alxasov (10), Tural Bayramlı (39) və Lorenzo Frutos (45, 90) fərqləniblər.

Turunun növbəti oyununda “Zirə” klubu “Sabah” komandasını qəbul edib. Görüş 1:1 hesabı ilə başa çatıb. Hesabı 35-ci dəqiqədə qonaqlar açıb. Amadu Diallo fərqlənib. Fasilədən sonra oyunun son dəqiqələrində zirəlilər hesaba tarazlıq gətiriblər. Soni Norde adını tabloya yazdırıb. Qalan dəqiqələrdə hər iki komandanın cəhdlərinə baxmayaraq, hesab dəyişməyib.

Sentyabrın 1-də çempionatın üçüncü turunun növbəti oyunu keçirilib.

Vitse-çempion “Neftçi” “Bakcell Arena”da “Sumqayıt”ı qəbul edib. Görüş paytaxt təmsilçisinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Oyunda hesabı 33-cü dəqiqədə “Sumqayıt”ın futbolçusu Mehdi Şərifi açıb. Fasilədən sonra oyunda dönüş yaradan “flaqman” rəqibin qapısından iki top keçirərək qalib gəlib - 2:1. “Neftçi”nin heyətində Emin Mahmudov (64) və Jozef Monroz (90) fərqləniblər.

Son çempionun heyətində İsmayıl İbrahimli dubl edib, Dani Kintana və Mahir Emreli hərəyə bir dəfə fərqləniblər.

Üç turdan sonra turnir cədvəlinə 9 xalla “Qarabağ” klubu başçılıq edir. Altı xalı olan “Səbail” və “Keşlə” ikinci və üçüncü yerləri bölüşürlər. Digər pillələrdə müvafiq olaraq “Zirə” (4), “Neftçi” (4), “Sumqayıt” (3), “Sabah” (2) və “Qəbələ” (0) qərarlaşıblar.



Turun son qarşılaşmasında “Səbail” və “Qarabağ” klubları üz-üzə gəlib. Görüş Ağdam təmsilçisinin 4:0 hesablı qələbəsi ilə başa çatıb.

## Transfer xəbərləri



“Sevilya” heyətinə yeni futbolçu cəlb edib. La Liqa təmsilçisi “Vest Hem”in hücumçusu Xavyer Hernandesin (Çiçarito) keçidini həll edib. Meksika millisinin üzvü artıq Sevilyadadır. Bu transfer üçün ispanların qarşı tərəfə 9 milyon avro ödəyəcəyi bildirilir.

Qeyd edək ki, 31 yaşlı forvard Avropada “Mançester Yunayted”, “Real” və “Bayer”də də oynayıb.

* * *

“Arsenal”ın ispaniyalı müdafiəçisi Naço Monreal “Real Sosyedad”a transfer olunub. İspanlar 33 yaşlı oyunçuya görə “topçular”a 250 min avro ödəyib. Naço Monreal “Real Sosyedad”la iki illik müqavilə imzalayıb. Qeyd edək ki, ispaniyalı oyunçu 2013-cü ildə “Arsenal”a “Malaqa”dan transfer olunmuşdu.

* * *

“Mançester Yunayted” müdafiəçisi Mateo Darmianla yollarını ayırıb.

29 yaşlı müdafiəçi “Parma”ya transfer olunub. İtaliya klubunun rəsmi saytı oyunçu ilə 4 illik müqavilə imzalandığını açıqlayıb. “Parma” bu transferə görə qarşı tərəfə 1,5 milyon avro ödəyib.

* * *

“Mançester Yunayted”in hücumçusu Aleksis Sançes karyerasını İtaliyada davam etdirəcək. Çilili futbolçu “İnter”ə keçib. Milan klubu 30 yaşlı futbolçunu bir mövsümlük icarəyə götürüb. Qeyd edək ki, 2022-ci ilin yayına qədər “Mançester Yunayted”lə müqaviləsi olan A. Sançes ötən mövsüm 27 oyuna 2 qol vurub, 4 məhsuldar ötürmə edib.




* * *

“Mançester Yunayted”in futbolçusu Kris Smollinqin “Roma”ya keçidi rəsmiləşib. 29 yaşlı müdafiəçi 2019-2020-ci illər mövsümünü icarə əsasında İtaliya təmsilçisində keçirəcək. “Roma” İngiltərə klubuna 3 milyon avro icarə haqqı ödəyəcək.

Qeyd edək ki, K.Smollinq yeni klubunda 6 nömrəli forma geyinəcək.

* * *

“Atalanta”nın yeni transferi Martin Şkrtel klubu tərk edəcək.

34 yaşlı müdafiəçinin fiziki durumu baş məşqçi Can Pyero Qasperinini qane etmir. Qeyd edək ki, slovakiyalı futbolçu İtaliya klubuna cəmi 21 gün əvvəl - avqustun əvvəllərində keçib. O, “Atalanta” ilə bir illik müqavilə imzalayıb. Bu sənədin qarşılıqlı razılaşma ilə ləğv olunacağı bildirilib.

Şkratelin son klubu İstanbul “Fənərbağça”sı olub.

* * *

“Çelsi” Timue Bakayokonu “Monako”ya icarəyə verib.

“Monako” 25 yaşlı fransalı yarımmüdafiəçiyə görə qarşı tərəfə 2,5 milyon avro ödəyib. Oyunçu ilə birdəfəlik almaq bəndi də daxil olmaqla 1 illik müqavilə imzalanıb. Qeyd edək ki, Bakayoko ötən mövsümü icarə əsasında “Milan”da çıxış edib.

* * *

PSJ-nin futbolçusu Metehan Güçlü Fransanın digər klubu “Renn”ə keçib. 20 yaşlı hücumçu ilə 4 illik müqavilə imzalanıb.

Qeyd edək ki, Fransada doğulan türkiyəli futbolçu PSJ-nin yetirməsidir. O, Türkiyənin U-21 millisinin üzvüdür.

* * *

PSJ heyətini yeni futbolçu ilə gücləndirib. Paris təmsilçisi “Sevilya”dan qapıçı Serxio Rikonu heyətinə cəlb edib. 26 yaşlı qolkiper 2019/20 mövsümünü icarə əsasında PSJ-də keçirəcək.




PSJ mövsümün sonunda Rikonun transfer hüquqlarına sahib ola bilər.

* * *

“Beşiktaş” daha bir futbolçusu ilə yolları ayırıb. Qari Medel İstanbul təmsilçisini tərk edib. Çili millisinin üzvü karyerasını İtaliyada davam etdirəcək. O, A Seriyasında mübarizə aparan “Bolonya” ilə anlaşıb. Artıq İtaliyaya yola düşən 32 yaşlı yarımmüdafiəçinin tezliklə yeni klubu ilə rəsmi müqavilə imzalayacağı bildirilir.

* * *

“Qalatasaray” hücumçusu Mbaye Dianı İtaliyanın “Verona” klubuna icarəyə verib. A Seriya təmsilçisi Seneqal millisinin üzvünü bir illik icarəyə götürüb. “Verona” müqavilənin şərtlərinə görə mövsümün sonunda futbolçunu 2,5 milyon avro qarşılığında satın ala bilər.

* * *

Fernando Lyorente “Tottenhem”dən ayrılıb. London təmsilçisi ilə müqavilə müddəti başa çatan 34 yaşlı hücumçu ilə sözləşmə yenilənməyib. İspaniyalı forvard karyerasını “Napoli”də davam etdirəcək. Neapol təmsilçisi onunla müqavilə imzalandığını açıqlayıb.

* * *



Fransa millisinin sabiq mərkəz müdafiəçisi Adil Raminin “Fənərbağça”ya keçidi rəsmiləşib. 33 yaşlı oyunçu ilə 1+1 illik müqavilə imzalanıb. Klub transferin maddi dəyəri haqda açıqlama verməyib. Onunla müqavilə “Şükrü Saracoğlu” stadionunda imzalanıb. Qeyd edək ki, Rami son 2 mövsümü “Marsel”də keçirib. O, 21 oyunda 1 qol vurub və 1 məhsuldar ötürmə edib.

# FUTBOL

## Çempionlar Liqası: yeni austsayderlər köhnə favoritlərə qarşı



*Avqustun 29-da Monakoda futbol üzrə UEFA Çempionlar Liqasının 2019-2020-ci illər mövsümünün qrup mərhələsinin püşkatma mərasimi keçirilib. Avropanın ən güclü 32 komandası hər birində dörd komanda olan səkkiz qrupa bölünüb. "Olimpiya dünyası" qrup mərhələsində üz-üzə gələcək komandaların oyunlarının təhlilini və fərdi proqnozları oxucularına təqdim edir.*

### Nəhənglər "Aslanlar"ı təkləyə biləcək?

Püşkatmanın nəticələrinə görə A qrupunda PSJ (Fransa), "Real" (İspaniya), "Brügge" (Belçika) və "Qalatasaray" klubları üz-üzə gələcəklər. Əgər statistikalara nəzər salsaq görərik ki, Madrid təmsilçisi Fransa klublarına qarşı keçirdiyi son 10 oyunda məğlub olmayıb - 8 qələbə, 2 heç-heçə.

PSJ və Madrid "Real"ı sonuncu dəfə ötən il keçirilən analoji yarışda üz-üzə gəlmişdilər. 1/8 final mərhələsində hər iki görüşdə ispaniyalılar qələb qazanmışdılar. "Real" fevralın 14-də keçirilən görüşdə 3:1, martın 6-da baş tutan təkrar qarşılaşmada isə 2:1 hesablı qələbə ilə mərhələ keçmişdi. Püşkün nəticəsinə əsasən qrupun əsas favoritləri elə "Real" və PSJ komandaları hesab olunur. "Ölüm qrupu"na düşən Türkiyə təmsilçisi "Qalatasaray"ın isə işi çox çətin olacaq. "Aslanlar" 19 il əvvəl UEFA Superkubokunun finalında İspaniya nəhəngini 2:1 hesabı ilə məğlub etmişdilər. Lakin indi vəziyyət daha qəlizdir. Çempionlar Liqasının 13 qat qalibi ilə mübarizədə "cimbom"un necə mübarizə aparacağı azarkeşlər üçün də maraqlı olacaq.

### "Tottenhem"in qrupda bir rəqibi var

Püşkün nəticələrinə görə ÇL-in B qrupunda "Bavariya" (Almaniya), "Tottenhem" (İngiltərə), "Olimpiakos" (Yunanıstan) və "Srvena Zvezda" (Serbiya) klubları qarşılaşacaqlar. Son illər Avropanın ən nüfuzlu klub turnirində uğursuz çıxış edən bundestiqanın ötən ilki yarımfinalçısını "Tottenhem" klubu ilə gərgin mübarizə gözləyir. 1/8 finala vəsiqə uğrunda əsas mübarizə də məhz bu iki klub arasında gedəcəyi heç kəsə sirr deyil.

### Püşkatmada əbədi rəqiblər

Çempionlar Liqasının C qrupunda əsas mübarizə "Mançester Siti" (İngiltərə), "Şaxtyor" (Ukrayna) "Dinamo Zaqreb" (Xorvatiya) və "Atalanta" (İtaliya) klubları arasında olacaq. "Mançester Siti" və "Şaxtyor" klubları ardıcıl olaraq son üç mövsümdür ki, Çempionlar Liqasının qrup mərhələsində üz-üzə gəlirlər.

### "Qoca Sinyora"nın ""Atletiko" sindromu"

D qrupunda "Yuventus", "Atletiko", "Bayer" və "Lokomotiv" komandaları üz-üzə gələcəklər. Bu qrupun əsas favoritləri İtaliya və İspaniya təmsilçiləri sayılırlar. Ötən il 1/8 finalda qarşılaşan bu klubların mübarizəsində "Qoca Sinyora" mərhələ adlayan tərəf olmuşdu.

### "Napoli"nin intiqamı

Azarkeşlər Çempionlar Liqasının E qrupunda ötən il olduğu kimi bu ildə "Liverpul" və "Napoli" komandalarının oyununa şahidlik edəcəklər. İtaliya təmsilçisi ötən il qrupda keçirdiyi hər iki görüşdə "mersisaydlılar"a layiqli müqavimət göstərsə də, qrup mərhələsini adlaya bilməmişdi. E qrupunda bu iki kluba yanaşı, Avstriyanın "Zalsburq" və Belçikanın "Genk" klubları da 1/8 finala vəsiqələr uğrunda mübarizə aparacaqlar.

### "Barselona"nın yolu hamar olmayacaq

Azarkeşlər Çempionlar Liqasının F qrupunda da bu il maraqlı qarşılaşmalar izləyəcəklər. Bu qrupda "Barselona" (İspaniya), "Borussiya" (Dortmund, Almaniya), "İnter" (İtaliya) və "Slaviya" (Çexiya) komandaları münasibətlərinə aydınlıq gətirəcəklər. Kataloniyalılar Çempionlar Liqasında bu günə qədər "Borussiya" komandası ilə qarşılaşmayıb. Bu komandalar yalnız UEFA Super Kubokunda görüşüblər ki, burada da "Barselona" 2 görüşün nəticəsinə əsasən, 3:1 hesabı ilə qalib gələrək kuboka sahib çıxmışdı. Bu qrupda əsas mübarizə isə sözsüz ki, "Barselona" və "İnter" klubları arasında olmuşdu. Ötən il ÇL-in qrup mərhələsində də üz-üzə gələn bu klublar ümumilikdə 8 dəfə mübarizə aparıblar ki, bu qarşılaşmaların 4-də "Barselona", 1-də isə "İnter" qalib gəlib. 3 oyun isə heç-heçə başa çatıb. Sözsüz ki, bu il də 1/8 finala vəsiqə uğrunda əsas mübarizə bu iki klub arasında olacaq. Lakin Almaniya təmsilçisini də siyahıdan silmək olmaz.





### Soyuq Moskvada "donan ümidlər"

G qrupunda rusların bəxti gətirdi, desək, yanılmarıq. Son illərdə böyük yüksəliş dövrü keçən paytaxt təmsilçisinin qrup mərhələsini keçmək imkanları çox yüksəkdir. Soyuq Moskvada "Benfika"nın, "Olimpik"in, hətta "Leyptsiq"in onlar müqavimət göstərəcəyinə inam azdır. Bu, o deməkdir ki, "Zenit" evdə keçirdiyi görüşlərin favoritidir. "Benfika" ötən ildən fərqli olaraq, xeyli zəifləyib. Bunu, "Olimpik"ə də aid etmək olar. Tarixində ikinci dəfə qrup mərhələsinə vəsiqə əldə edən "Leyptsiq"in isə qrupdan ikinci vəsiqə ilə çıxması mümkündür.

### Ötənilki güclü klublardan əsər-əlamət qalmayıb

H qrupunda ötənilki güclü klublardan əsər-əlamət qalmayıb. "Çelsi" mövsümə uğursuz başlayıb. Mübarizəyə transfer etmədən başlayan "zadəganlar"ın qrupda mübarizəsi asan olmayacaq. "Ayaks" futbolçularını satıb, bir qədər zəifləyib. "Valensiya" isə hələ öz oyununu tapa bilməyib. "Lill" isə fürsət tapıb, bu rəqiblərindən xal almağa çalışacaq. Ola bilsin, hətta "çətin rəqib" statusunu qazansın.

Qeyd edək ki, qruplarda ilk iki yeri tutan komandalar növbəti mərhələyə vəsiqə qazanacaqlar.

UEFA Çempionlar Liqasının qrup mərhələsi altı turdan ibarət olacaq. Qarşılaşmalar sentyabrın 17-18-də, oktyabrın 1-2-də, oktyabrın 22-23-də, noyabrın 5-6-da və 26-27-də, dekabrın 10-11-də keçiriləcək.

### Püşkatma belə nəticələnib:

**A qrupu**
PSJ (Fransa)
"Real" (İspaniya)
"Brügge" (Belçika)
"Qalatasaray" (Türkiyə)

**B qrupu**
"Bavariya" (Almaniya)
"Tottenhem" (İngiltərə)
"Olimpiakos" (Yunanıstan)
"Srvena Zvezda" (Serbiya)

**C qrupu**
"Mançester Siti" (İngiltərə)
"Şaxtyor" (Ukrayna)
"Dinamo" (Zaqreb, Xorvatiya)
"Atalanta" (İtaliya)

**D qrupu**
"Yuventus" (İtaliya)
"Atletiko" (İspaniya)
"Bayer" (Almaniya)
"Lokomotiv" (Rusiya)

**E qrupu**
"Liverpul" (İngiltərə)
"Napoli" (İtaliya)
"Zalsburq" (Avstriya)
"Genk" (Belçika)

**F qrupu**
"Barselona" (İspaniya)
"Borussiya" (Dortmund, Almaniya)
"İnter" (İtaliya)
"Slaviya" (Çexiya)

**G qrupu**
"Zenit" (Rusiya)
"Benfika" (Portuqaliya)
"Olimpik" (Lion, Fransa)
"Leypsiq" (Almaniya)

**H qrupu**
"Çelsi" (İngiltərə)
"Ayaks" (Hollandiya)
"Valensiya" (İspaniya)
"Lill" (Fransa)

## İlin ən yaxşıları müəyyənləşib



"Liverpul" klubunun hollandiyalı müdafiəçisi Virjil van Deyk UEFA versiyasına görə 2018-2019-cu il mövsümünün ən yaxşı futbolçusu seçilib.

Mükafatlar avqustun 29-da Monakoda UEFA Çempionlar Liqasının qrup mərhələsinin püşkatma mərasimi çərçivəsində təqdim edilib.

İlin futbolçusu adına "Yuventus"un portuqaliyalı hücumçusu Kriştianu Ronaldo və "Barselona"nın argentinalı hücumçusu Lionel Messi də namizəd idi.

Lionel Messi UEFA Çempionlar Liqasının 2018-2019-cu il mövsümünün ən yaxşı hücumçusu, Frenki De Yonq ("Ayaks") ən yaxşı yarımmüdafiəçi, Virjil van Deyk ən yaxşı müdafiəçi, Alison Beyker ("Liverpul") isə ən yaxşı qapıçı nominasiyalarının qalibi olublar. Tədbirdə ilin ən yaxşı qadın futbolçusunun da adı açıqlanıb. Qadınlar arasında Fransanın "Lion" klubunun ingiltərəli sağ cinah müdafiəçisi Lüsi Bronz ən yaxşı qadın futbolçu adını qazanıb.

Qeyd edək ki, tədbirdə həmçinin Çempionlar Liqasında 2019-2020-ci illər mövsümündə qrup mərhələsinin matçlarında oynanılacaq top da ictimaiyyətə təqdim olunub. ÇL-in rəsmi "Tvitter" səhifəsində verilən xəbərə görə, top "Adidas" şirkəti ilə birgə hazırlanıb.

## Luis Enrikeyə ağır itki

İspaniya millisi və "Barselona"nın sabiq baş məşqçisi Luis Enrikeyə ağır itki üz verib. Onun 9 yaşlı qızı Xana dünyasını dəyişib. Enrike bunu şəxsi "Tvitter" səhifəsində açıqlayıb. O, övladının 5 ay sümük xərçəngindən əziyyət çəkdikdən sonra vəfat etdiyini bildirib.

Enrikenin ailəsində baş verən faciə futbol aləmini də sarsıdıb. Cəmi 1 saat ərzində 200 mindən çox insan "Tvitter"də kədərini bildirərək ona dəstək olub. Onların arasında futbolçular çoxluq təşkil edir. Qeyd edək ki, L.Enrike qızının xəstəliyi səbəbindən ötən ilin yayından çalışdırdığı İspaniya millisindən bu ilin iyun ayında ayrılıb.



**Dünya – idmanı**

# Fettel kubokların dizaynından narazıdır

“Ferrari” komandasının pilotu Sebastyan Fettel bəzi yarışlardakı kubokların dizaynından narazıdır. Bir sıra yarışlarda kubokların titul sponsorlarının istəyi ilə hazırlandığını deyən almaniyalı pilot belə kubokları görmək istəmədiyini bildirib. “2015-ci ildə Macarıstanda keçirilən yarışda mükafatçılar sırasında yer aldığıma görə çox xoşbəxt idim. Amma mükafatlandırma mərasimində standart bir kubokla təltif olunanda məyus oldum. Uşaqlıqda Formula 1 yarışlarını izləyirdim. Həmin vaxtı kuboklar daha gözəl idi. Lakin indiki kubokların



dizaynı o qədər də yaxşı deyil. Məncə, belə hallara nəzarət etmək lazımdır. Titul sponsorlarının kubokları çox darıxdırıcıdır. Hara baxırsansa sponsorların reklamlarını görürsən. Bu azmış kimi, həmin reklamlar kubokları da zəbt edir”, - deyə Sebastyan Fettel bildirib.

# “Hər iki rəqibim məni gözləsin”

Həbib Nurməhəmmədovla sentyabrın 7-də Əbu-Dabidə keçiriləcək döyüşdə qalib gəlsə, onun növbəti rəqibi Toni Fergüson olacaq. “Həbiblə görüşün tez başlamağını istəyirəm. Onun üçün 25 dəqiqə vaxt ayırmışam. Əsas diqqətimi Toni ilə döyüşə yönəltməliyəm. Hər iki




Qarışıq döyüş növləri üzrə çıxış edən amerikalı döyüşçü Dastin Porye növbəti rəqibinin adını açıqlayıb. O, bildirib ki, rəqibim məni gözləsin. Porye sizinlə haqq-hesab çəkəcək”, - deyə UFC çempionu bildirib.



*Üfüqi:*

3. Son Türkiyə çempionu
5. Formula 1 Azərbaycan Qran-prisinin səfiri
6. Polşalı futbolçu
8. “Qarabağ”ın ÇL-in təsnifat mərhələsindəki rəqibi
10. Yaponiyada ada
13. Rusiyalı Olimpiya çempionu, mayor
16. İdmançıların bir klubdan digərinə keçidi

*Şaquli:*

1. ABŞ-ı təmsil edən yaponiyalı şahmatçı
2. İdman növü
4. Son Olimpiya Oyunlarında Azərbaycan idmançısı bu növdə qızıl medal qazanmışdı.
7. A Seriyasında çıxış edən klub
9. Cüdoda və karatedə dərəcə
11. “Neftçi”nin appeninli baş məşqçisi
12. Qərbi Afrikada yerləşən ölkə
14. Yokozunaların yarışı
15. Azərbaycanda kurort şəhəri
17. “Red Bull” komandasının pilotu
18. İngiltərənin futbol klubu
19. “Buzüstü şahmat”, Qış olimpiya idman növü

# “İnstaqram” izləyiciləri “Real”ı birinci etdilər

“İnstaqram”da ən çox izləyicisi olan futbol klublarının adı açıqlanıb. Siyahının ilk pilləsinə Madridin “Real” (77.6 milyon izləyici) klubu qərarlaşıb. “Barselona” 76.4 milyonla ikincidir. Ötən illə müqayisədə 3-cü pillədə dəyişiklik olub. “Yuventus” “Mançester Yunayted”i qabaqlayıb. 2018-ci il 10 milyon izləyicisi olan Turin klubunda bu rəqəm 31.1 milyona yüksəlib. Bu artıma Kriştianu Ronaldonun “Yuventus”a keçməsinin səbəb olduğu bildirilib. Portuqaliyalı hücumçunun isə “İnstaqram”da 181 milyon izləyicisi var.



# İtaliyalı məşhur motosikletçi Qran-pri zamanı ağır qəza törədib

“MotoGP” üzrə dünya çempionatında çıxış edən “Ducati” komandasının italiyalı motosikletçisi Andrea Dovitsiozo Böyük Britaniya Qran-Prisi zamanı ciddi qəza törədib.

Qəzadan sonra xəstəxanaya yerləşdirilən italiyalı sürücünün ağır kəllə-beyin travması aldığı bildirilib. İtaliyalı idmançı “Yamaha”nın fransalı sürücüsü Fabio Kuartararo ilə toqquşaraq asfalta yıxılıb və onun motosikleti yanıb.

Qeyd edək ki, 20 dövrədən ibarət motoyürüşdə “Suzuki” komandasının üzvü Aleks Rins birinci olub. “Honda”nın üzvü, beşqat dünya çempionu Mark Merkes yarışı ikinci, Maverik Vinyales (“Yamaha”) isə üçüncü pillədə başa vurub. Yarış cədvəlinə 250 xalla M.Merkes başçılıq edir. A.Dovitsiozo 172 xalla ikinci, A.Rins isə 149 xalla üçüncü pillədə qərarlaşıblar.

Növbəti yarış sentyabrın 15-də İtaliyada təşkil olunacaq. Mövsümə noyabrın 17-də İspaniyada yekun vurulacaq.

**olimpnews.az – sizin saytınız**




Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19